# NECƏ OLDU Kİ, BİZ KİTAB OXUMAĞA BAŞLADIQ



## Nübar ELDARQIZI

### YAĞIŞLAR ALLAHIN GÖZ YAŞLARIDIR

Yazmaq-yaratmaqdır, onun qədəri!
Böyüyün böyükdür dərdi,kədəri...
Bir damcısı bəsdir dağıda Yeri,-
Yağışlar Allahın göz yaşlarıdır!

Nə qədər canlı var,anası odur!
Sonsuz kəhkəşanın bənnası odur!
Külək qəzəbidir,-ən asi odur,
Yağışlar Allahın göz yaşlarıdır!

Günəşi parlasa,sıcağı xoşdur!
Cəhənnəm olmasa,- ocağı xoşdur.
Sevincdən ağlasa ,hər çağı xoşdur,
Yağışlar Allahın göz yaşlarıdır!

Yazır,-yazdığını silən də özü...
Hər ölən ürəkdə öləndə özü
ağlayır bir gözü,gülür bir gözü,
Yağışlar Allahın göz yaşlarıdır.

Yenə pəncərəmi döyür deyəsən;
Açasan qapını "buyur!" deyəsən...
Dünyanın günahın yuyur deyəsən,-
Yağışlar Allahın göz yaşlarıdır!

### QƏMİN AQREQAT HALI

Niyə məni görmürsünüz?-
Gözünüzün önündəyəm...
Qəmin aqreqat halında,*
Şairin it günündəyəm...

Misqal-misqal,dirhəm-dirhəm,
Qüssə çəkir,dərd bölürəm,
Mən hər gedənlə ölürəm,
Hər gələnin sinnindəyəm.**

Güzgüyəm,bax, özünü gör,
Əyrini seç,düzünü gör,
Sən istəsən yüzünü gör,-
Mən bilirəm,minindəyəm!

Yal üçün yalaq olmadım,
Gül oldum,alaq olmadım!
Kimsəyə calaq olmadım,
Dədə-baba genindəyəm!

Hər dəmir qatar götürmür,
Hər zaman Nübar yetirmir!
Nübar bitir,-Haqq bitirmir,-
Fərqindəsiz,-zənnindəyəm!

Küləklər ahdan başladı.
Yağışlar şehdən başladı,
Adəm ilə Həvva çaşdı,-
Dünya günahdan başladı....

-Bir günah da biz elədik,
Elə bildik düz elədik,
Çatana "sevirəm" deyib
Sözü sevimsiz elədik...

Nə qədər eşq,o qədər qəm!
Belə gəlib dünya,aləm.
Kimi bizi qaraladı,
Kiminə biz cəkdik qələm...

Keçmir bu Yerdə nazımız,
Eyzən qəm çalır sazımız.
Torpaq payın alıb susur
Razımızla narazımız...

Günəş keçir o tərəfə:
Xəbərdir,qoyulur zərfə.
Səhər əyan olacaq,bu
nəyə son,nəyə ərəfə...

*Suyun aqreqat halı: su,buz,buxar*
***yaş*
**** Ərəfə*

### DƏNİZ

Dalğa sahilə at sürür,
Qayalar dəftərin dürür!
Yenə dəli dalğa bu hürr
Sahilin sərhədin pozdu...

Bir-birini yenə-yenə,
Qaçdılar,qovdular yenə.
Nə qədər yudular,yenə
Qayalar elə bombozdu..
Gəmilər dopdolu gəlir,
Özü açıb yolun,-gəlir!
Xətləri anında silir,-
Bu dəniz çox sorumsuzdu...

Gecə gündüzü devirib,
Qum saatın tərs çevirib...
-Bu şorbanı kim bişirib?-
Əti şitdi,suyu duzlu...

### ZORNAN OLMUR...

Bir ay gözə görünmürsən,
Maraqlanan,soran olmur.
Hər şey yazılıb,oynanır,
Və heç bir şey zornan olmur!..

300 din var,günah bitmir...
Niyə göylərə ah çatmır?
-Adam çoxdu,-Allah çatmır?!
Tək-tək olmur...xornan olmur...

Səhv elədik,yazar olduq,
Aldıq,satdıq,bazar olduq...
Yalvarmaqdan bezar olduq,
-Yağnan olan şornan olmur!..

Ümidlərim çilik-çilik,
Qəlbim desən,dəlik-dəlik,
Dərdə çıxıram gündəlik,
Yoxnan olur,-varnan olmur!

Qapı varsa,açanı var!
Dəlikdən də keçəni var!
Yəni baxtdan qaçanı var?-
Tale korsa?!
Kornan olmur...

### DAĞLAR VƏ BULUDLAR

Dirsəklənib dağlara nəhəng -nəhəng buludlar,
Günə verir özünü qəşəng- qəşəng buludlar!
Baba-dağ,nəvə-bulud,biri yumşaq,biri sərt,
Verdiyi əhval ilə dağlara dəng buludlar!
-Dağ,ətəyində göl var,gölə rəsminiz düşüb,
Yaxalamısız gözəl uyum,ahəng,-buludlar!
Təxribat peşindədi şimşəklər,ildırımlar,
Topanıza atacaq indi fişəng,buludlar.
Elə ki,üzü dönür,suyu belə "sındırır",
Qəzəb ilə yağanda,edəndə cəng buludlar.
Bəzən küləklər qovur, ipini qırıb qaçır,
Başımızın üstündən bu çərpələng buludlar.
Ağı hüzur,qarası narahatlıq doğurur,
Hüzn verir qəlbimə narıncı rəng buludlar...
Yeddibaşlı əjdaha,div də deyərsən ona,
Şəkil-şəkil dəyişir aslan,pələng buludlar.
Göy guruldasa qorxar,qısılar bir-birinə,
Uşaq kimi ağlayar bu pəzəvəng buludlar.
Bəzən tül kimi olur,yağıb,boşalıb,sanki,
Mavi fona çəkilib bir qat əhəng buludlar.
İlıq yaz gecəsində aşiq olmamaq çətin,-
Dövrəyə alıb Ayı xoşbəxt,çələng buludlar.
Ayrılmaz dostlar kimi bəzən verir əl-ələ,
Dövrə vuraraq "yallı" gedir pərsəng buludlar.
Ya da "coban aldadır", gah gizlənpaç,gah da ki,
Dava-dava oynayır,-atır tüfəng buludlar...
-Çaçlarını aşiqlər buluda bənzədərdi,
Kənd qızının ciynində,güyüm,səhəng buludlar.
Yaz vaxtı cavan çoban çöldən yığıb gətirər,
"Ağzı tamsız" gəlinə yemlik,turşəng,buludlar.
-Sezgilərim deyir ki,bu bir doğuş öncəsi,-
Ağırayaqlı gəzir göydə ləng-ləng buludlar.
Tufandan əvvəl səma göy geyib,qara bağlar,
Yan-yan gedir qorxudan yenə xərçəng buludlar...
Sinoptiklər deyir ki,yağış gəlir,qar gəlir,
-Nə zaman elədiniz onlara zəng,buludlar?
Yağdınız,hamı çöldən yığdı əlin,ayağın,
Yaxşı bir çay yeri var,isti, pürrəng, buludlar!
Ehtiyat,-yaraşıqdır,yağın ki,dolub-daşsın,
Mingəçevir,Yenikənd,Araz,Sərsəng...buludlar!

### ...ÖVLAD

Ölən cismimizdi,övlad,
Ruhumuz dipdiri gedir.
Dünya yol keçən durağı,
Biri gəlir,biri gedir...

Doğulan tək qaçır çağa,
Vaxt bitincə yox qadağa!
Əvvəlcə üzü qabağa,
Sonra geri- geri gedir...

Payına düşən bir ömür;
Hərə bir sürətlə sürür.
Saman altından su yürür,
Üstdə saman quru gedir!

Əslində ruh,-bir laməkan!
Qəfəsidir görünən can!
Canın ki,qurtarır candan,
Arınıb dupduru gedir!

Göyə,- gələn kitablara,
Günahlara,savablara
Tapılmayan cavablara
Verilən min soru gedir!..

### FEVRAL QALDI ÜSTÜMÜZƏ

Ağzı pozuq,ağzı yava,
Biri toyda saldı dava.
-Sümüyünə düşmür hava,-
Soz də soxdu bəstəmizə.

Fərdlər başqa,dərdlər təkrar,
-Yoxsula,-yox! Varlıya,-var!
Şərbət verən nəbzi yoxlar,
-Dərman olmaz xəstəmizə!

Ha mərd ol,ha döy döşünə,
Əl uzadan yox düşənə!
Dost olduğuyçün duşmənə,-
Düşmən olduq dostumuza.

Ruhduq,canı ödünc aldıq,
Gen dünyadan bir künc aldıq.
Zalım fələkdən gün çaldıq,-
Fevral qaldı üstümüzə!..

### İLK İNSAN VƏ SON İNSAN!

Mən korlar kəndində doğulmuş,
Karlar şəhərində yaşayıram.
Çölümü səhranın bəyaz günəşi yandırdığından, içimdəki qarlar şəhərində yaşayıram.
Cırcıramaların cırıltısından, qarğaların qarıltısından bülbül nəğmələrimi kimsə eşitmir,
İçimdəki daş kitabələri kimsə oxumur...
Robinzon Kruzodan sonra ağac yarpaqlarından təqvim düzəldib
Ömrümün günlərini sayıram...
Fikirlərimə günəşi nöqtə,ayı vergül qoyuram.
"İç"adlı gəzəgəndə
bütün günü özümü reklam edirəm...
Qəlbimdəki qorxu tamaşaçıların şüuraltına "məni al!"deyə saniyədə 60 dəfə siqnal göndərir...
-Ədəb satanlar bütün bazarları bağladılar;
Yenə dəllal kişilər, həyasız arvadlar neçə cərrah redaktəsindən çıxmış şeirləri bakirə, "təmiz beçə balı, kənd şoru, nehrə yağı"adı altında sırıyirlar nadan oxuculara...
Nizaminin nəsihət verən Dədə Qorqud şeirləri,
Füzulinin qədərinə boyun əymiş, qismətiylə barışan ah-nalələri, Nəsiminin dünyaya meydan oxuyan, mənəm, mənəmliyi... yandırıcı, qaynar havalarda dolaba qaldırılan qış paltarları kimi hisslərin sərinləşəcəyi(?!) vaxtları gözləyir...
Adam bəzən olmadığı dövrü,yaşamadığı xoşbəxtliyi özləyir...
-Bizim nəsil elə vaxtda dünya evinə girdi ki, gördük bura cənnət xəyallarının belə alınıb satıldığı nəhəng bir bazardı...
Son insan ilk insandan daha qəddarmış!
Eh...
-Ağrının* zirvəsində yaşayan şair, dağ ətəyini sel aparır, xəbərin varmı?!

**Ağrı dağı*